**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm:___________(kafedra müdiri)
Tarix: 8 sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Tirizmə giriş 7 kredit |
| | **Fakültə** | İqtisadiyyat |
| | **İxtisas** | İqtisadiyyat |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | I |
| | **Semestr** | I |
| | **Təlimçi** | Cabbarov Əli Xeybər oğlu, i.f.d., dos. |
| | **e-mail** | acabbarov@mail.ru |
| | **Telefon** | +994503113395 |
| | **Dərs günləri və saatları** | II gün 1-ci s., IV gün 2-ci s. |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | **Əsas ədəbiyyatlar:**<br>1. Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015.ADPU-nəşriyyatı.<br>**Əlavə ədəbiyyatlar:**<br>2.İ. Hüseynov, N. Əfəndiyeva Turizmin əsaslari. Dərslik. Azərbaycan dilində. Baki 2007. | |
| **İstifadə ediləcək web səhifələr** | http://www.kitabxana.net/files/books/file/1534009392.pdf<br>https://referat.ilkaddimlar.com/r/referatlar/turizm/pdf-6272.pdf<br>http://anl.az/el/h/hi_te.pdf | |
| **Fənnin xülasəsi** | “Turizmə giriş” kursu turizm fəaliyyətinin təşkilində tələbələrin nəzəri biliklərinin və praktik vərdişlərinin formalaşdırılması məqsədi güdür. Kursun mənimsənilməsi ilə tələbələr seçmiş olduqları turizm ixtisasının mahiyyətini, onun əsas problemlərini öyrənməli, ümumi biliklər arasında turizmin yerini müəyyən etməlidirlər. | |
| **Fənnin məqsədləri** | “Turizmə giriş” fənninin tədrisində məqsəd tələbələrə turizmin əsas forma və növlərinin, tipləri və kateqoriyalarının, turizm məhsulunun, turizm infrastrukturunun və turizm sənayesinin formalaşması xüsusiyyətlərinin, turizm sahibkarlığının formalaşdırılmasının, turizm xidmət sahələrinin, xüsusən otel təsərrüfatının xüsusiyyətlərinin, beynəlxalq turizmin, turizmdə təhlükəsizliyin və turizmin dövlət tənzimlənməsinin əhəmiyyətinin mənimsədilməsidir.. | |
| **Öyrənmə nəticələri** | “Turizmə giriş” fənninin tədrisində məqsəd tələbələrə turizmin əsas forma və növlərinin, tipləri və kateqoriyalarının, turizm məhsulunun, turizm infrastrukturunun və turizm sənayesinin formalaşması xüsusiyyətlərinin, turizm sahibkarlığının formalaşdırılmasının, turizm xidmət sahələrinin, xüsusən otel təsərrüfatının | |

<table>
<tr><td></td><td colspan="3">xüsusiyyətlərinin, beynəlxalq turizmin, turizmdə təhlükəsizliyin və turizmin dövlət tənzimlənməsinin əhəmiyyətinin mənimsədilməsidir..</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">30 saat</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">30 saat</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td colspan="2"></td></tr>
<tr><td>Simulyasiya</td><td colspan="2"></td></tr>
<tr><td>Layihə</td><td colspan="2"></td></tr>
<tr><td>Digər</td><td colspan="2"></td></tr>
<tr><td rowspan="11">Qiymətləndirmə</td><td colspan="2">Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td colspan="2">Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td colspan="2">1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="3">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td colspan="2">2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="3">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” - A</td></tr>
<tr><td colspan="2">Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td>Qiymətl. metodları</td><td colspan="3">Yazılı imtahan</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər.</td></tr>
</table>

| **Tematik plan** | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix** | **Mövzular** | **Dərslik / Tapşırıq / Ədəbiyyat** |

| | | | |
|---|---|---|---|
| **1** | | Mövzu 1. **Turizm və ilk səyahətlər. Turizmin konseptual əsasları**<br><br>Turizm, mahiyyəti, məqsədi və funkisiyaları. İlk səyahətlər və onların məqsədi. Müasir cəmiyyətdə turizmin yeri və insanın rekreasiya tələbatlarının ödənilməsində onun əhəmiyyəti. Turizmin təsnifatı, növləri, tipləri, kateqoriyaları və formaları. Turist və onun adi səyahətçidən fərqləri. Turizmin subyektləri. Turizm fəaliyyəti və onun iştirakçıları. Turizm və iqtisadi-mədəni inkişaf. Turizmin forma və növləri.<br><br>Turizmin təyininə yanaşmalar. Turizm səfərlərinin müddəti, asudə vaxt, mövsümilik. Turizm səfərlərinin məqsədi. Səfərlərin əsas motivləri. Daxili və beynəlxalq turizm. Təşkilati və fərdi turizm. Turizm müəssisələri və firmaları, asudə vaxtın təşkilində onların rolu. Sosial turizm. Taymşer. Turizm regionu və onun turizm potensialı.<br><br>Turizm anlayışı. “Turizm” anlayışına yanaşmalar. Turizm bir sistem kimi. Turizm iqtisadi bir fəaliyyət növü kimi. Turizm dünya iqtisadiyyatının bir sferası kimi. Turizm elmi-praktiki fəaliyyət kimi. Turizmin təyininə sistemli yanaşma. Turizmin təyinində Leyper konsepsiyası. Turizmin əsas elementləri. Destinasiya turizm sisteminin əsas elementi kimi. Turizmin kriteriyaları. Turizmin əsas səciyyəvi xüsusiyyətləri və iqtisadi xarakteristikası. Turizmin məqsəd və funksiyaları. Səyahət və turizm. Turizmin inkişafına təsir edən amillər.<br><br>Turizmin iqtisadi təsirinin əsas istiqamətləri. Turizm və əhali məşğulluğu. Turizm və cəmiyyətin sosial problemləri. Turizmin cəmyyətin yetkinləşdirilməsinə təsiri. Turizm və əhalinin həyat səviyyəsi. Turizmin ekologiyaya təsiri. Turizm və cəmiyyətin humanitar inkişafı. Regional turizm və onun təşkili yolları. | Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015.ADPU-nəşriyyatı. |

| | | | |
|---|---|---|---|
| **2** | 21.02.22 | Mövzu 2. **Turizmin tarixi**<br><br>"Qədim dövr turizmi", qədim dövrlərin miqrasiya motivləri, ilkin kartoqrafiya. Qədim Misirdəki ekspedisiyaların məqsədləri. Qədim Çində coğrafiya mədəniyyəti. Qədim Yunanıstanda turizmin növləri. Qədim Romada turizm sənayesinin meydana gəlməsi. Orta əsrlərdə rahiblərin səyahətlərinin növləri. Xaç yürüşləri və onların turizmdə rolu. Böyük coğrafi kəşflər və onların turizm üçün əhəmiyyəti. İlk turist ittifaqları. Azərbaycanda turizmin yaranması. İnqilabaqədərki dövrdə Azərbaycanda turizm. Sovet hakimiyyəti dövründə Azərbaycanda turizm. Müstəqillik illərində Azərbaycan Respublikasında turizmin inkişafı. Azərbaycanda turizmin müasir vəziyyəti. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015.ADPU-nəşriyyatı. |
| **3** | | Mövzu 3. **Turizm ehtiyatları**<br><br>Turizmin inkişaf amilləri və onların şərtləri. Ərazinin turizm potensialının üzə çıxarılması və qiymətləndirilməsi. Ərazinin təbii-rekreasiya potensialı. Ərazinin turizm baxımından keyfiyyəti. Rekreasiya resursları turizm-rekreasiya potensialının əsası kimi. Rekreasiya resurslarının növləri. Rekreasiya ehtiyatlarının mahiyyəti və tərkibi. Rekreasiya ehtiyatlarının xüsusiyyətləri. Rekreasiya ehtiyatlarının gücü. Rekreasiya kadastrı və istirahətin ərazi balansı.<br><br>Turizm ehtiyatları anlayışı və mahiyyəti. Turizm ehtiyatlarının əsas xüsusiyyətləri. Turizm ehtiyatlarının təsnifatı və növləri. Turizm ehtiyatlarının kadastrı. Turizm marağı və turizm təəssüratı. Turizmin informasiya və sosial-iqtisadi resursları. Turizmin təbii-iqlim ehtiyatları. İstirahətin təşkilinin iqlim, hidroloji və oroqrafik (relyef) şərtləri. Turizm fəaliyyətinin tarixi-mədəni ehtiyatları, onların mahiyyəti, təsnifatı və qiymətləndirmə mərhələləri. Təbii və tarixi-mədəni irs və onların turizmdə rolu. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015.ADPU-nəşriyyatı. |

| | | | |
|---|---|---|---|
| **4** | | Mövzu 4. **Turizm məhsulu və onun tərkibi**<br><br>Turizm məhsulu: xidmətlər, işlər, əmtəələr. Turizm məhsulunun spesifikası, fərqləndirici xüsusiyyətləri. Tur, tur marşrutlar və onların növləri. Turizm ehtiyatları. Turizm marağı, onun ödənilməsində turizm ehtiyatlarının rolu. Turizm marağının obyekti. Tək-fərdi turdan turizm destinasiyasınadək turizm məhsulunun qiymətləndirilməsi.<br><br>Turizm məhsulu turoperator-turagent fəaliyyətinin nəticəsi kimi. Turizm məhsulunun təyin olunmasına qarşı qoyulan tələblər. Turizm məhsulunun mənbələri. Turizm ehtiyatları. Turizm məhsulunun iyerarxiyası. Turizm məhsulunun istehlakçıları. Turizm məhsulunun qanunvericilik əsası. Turizm məhsulunun iqtisadi mahiyyəti. Turizm məhsulu kompleks turizm xidmətləri kimi. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |
| **5** | | Mövzu 5.<br>**Turizmin funksiyaları**<br><br>Turizmin iqtisadi, sosial və humanitar funksiyaları, turizmin beynəlxalq münasibətlərdəki rolu, turizmin ekoloji vəziyyətə olan təsiri. Turizmin iqtisadi funksiyaları və turistlərin tələbatları. Dünya ölkələrinin turizm gəlirləri. Onun ÜDM-də yeri. Turizm gəlirləri və onların ödəmə balansına təsiri. Turizm və yeni iş yerləri. Turizm sənayesində məşğulluq. Turizmin hamarlama funksiyası. Hamarlama funkisyasının regional inkişafda və beynəlxalq münasibətlərdə yeri. Turizmin sosial-humanitar funksiyası. Şəxsiyyətin formalaşmasında onun rolu. Turizmin ekoloji funksiyası. Turizm və dayanıqlı inkişaf | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |
| **6** | | Mövzu 6.<br>**Turizm infrastrukturu**<br><br>Turizm infrastrukturu anlayışı. Turizm suprastrukturu. Xüsusiyyətləri və strukturu. Turist yerləşdirmə infrastrukturu. Yeməkxana infrastrukturu. Əyləncə və asudə vaxt infrastrukturu. Nəqliyyat infrastrukturu. Turizm rekreasiya obyektləri və kompleksləri. Ərazinin rekreasiya qiymətləndirməsi metodikası. Rekreasiya-turizm fəaliyyətinin cazibədarlığı. Ərazinin topoloji, funksional və estetik keyfiyyət xüsusiyyətləri. Yerləşmə | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |

| | | | |
|---|---|---|---|
| | | infrastrukturunun xüsusiyyətləri və problemləri. Turizmin maddi-texniki bazası. | |
| **7** | 14.03.22 | Mövzu 7.<br>**Turizm sənayesi. Turizmin təşkili**<br><br>Turizm sənayesinin mahiyyəti. Turizm fəaliyyətinin təşkilatçıları. Turoperator və turagent. Turoperator və turagent fəaliyyətinin spesifikası. Onlar arasındakı münasibətlər. Turizm sənayesinin digər üzvləri: mehmanxana, yemək, nəqliyyat xidmətləri. Əyləncə və asudə vaxtın təşkili xidmətləri. Ekskursiya fəaliyyəti. Turizm infrastrukturu. Ümumi və xüsusi turizm infrastrukturu. Turizm sənayesinin müasir modeli. Turistlər üçün mal və xidmətlər istehsal edən müəssisələrin strukturu. Turizm sənayesinin istehsal tərkibi. Azərbaycan Respublikası qanunvericiliyinə görə turizm sənayesinin strukturu. Qonaqpərvərlik sənayesinin strukturu. Turizm sənayesinin xüsusiyyətləri. Turizm sənayesi və turizm biznesi. Turizm sektoru. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |
| **8** | | Mövzu 8.<br>**Turizm bazarı**<br><br>Turizm bazarı: strukturu, xüsusiyyətləri və inkişaf mərhələləri. Bazar bir iqtisdai kateqoriya kimi. Xidmətlər bazarı anlayışı və xüsusiyyətləri. Müasir yanaşmalara görə turizm bazarı. Turizm bazarının subyektləri və əsas elementləri. Turizm bazarında tələb və təklif. İstehlak tələbinə təsir edən amillər. Turizm məhsulu təklifi və onun səviyyəsini müəyyən edən amillər. Turizm bazarının konyunkturası. Qiymət və qeyri-qiymət rəqabəti bazar strategiyası kimi. Turizm bazarının funksiyaları. Turizm bazarının xüsusiyyətləri. Turizm bazarının fəaliyyət mexanizmi. Bazarın tutumu. Turizm dövriyyəsi və onun əsas mərhələləri. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |

| | | | |
|---|---|---|---|
| **9** | | Mövzu 9.<br><br>**Turların formalaşdırılması, hərəkət etdirilməsi və reallaşdırılması**<br><br>Tur turoperator fəaliyyətinin əsas məhsulu kimi. Turların layihələndirilməsi texnologiyası. Turların formalaşdırılması. Turların hərəkət etdirilməsi üzrə tədbirlərin planlaşdırılması xüsusiyyətləri. Turların reallaşdırılması. Müşayiət və qarşılama-yolasalma xidmətləri və turların qiymətləndirilməsi. Turların layihələndirilməsi. Turizm fəaliyyəti. Turizm xidmətlərinin layihələndiirilməsi zamanı sənədləşmə qaydası. Turizm məhsulunun sertifikatlaşdırılması, turizm sənayesində standartlaşdırma və lisenziyalaşdırma. Turizm məhsulunun formalaşdırılması, hərəkət etdirilməsi və satışının xüsusiyyətləri. Turoperator. Turagent. Turizm məhsulunun həyat tsikli. Turizm xidmətlərinin layihələndirilməsi ardıcıllığı: xidmətlərin normalaşdırılan xarakteristikalarının təyini; turistlərə xidmət prosesi texnologiyasının təyin olunması; texnololji sənədləşmənin işlənilməsi; keyfiyyət nəzarəti metodlarının müəyyənləşdirilməsi; layihənin təsdiqə göndərilməsi. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |
| **10** | | Mövzu 10.<br>**Turizmin iqtisadi inkişafda rolu**<br><br>İqtisadiyyat anlayışı və onun funksiyaları. Turizm iqtsadi biliklər sistemi arasında. Turizm iqtisadi hadisə kimi. Turizmin iqtisadiyyatının predmeti. Turizmin iqtisadiyyatı iqtisad elmləri arasında. Turizmin iqtisadiyyatı: mahiyyəti, predmeti, öyrənilmə istiqamətləri. Turizmin ölkə, region iqtisadiyyatına təsiri. Təkrar istehsal funksiyası. İstehsalın amilləri: torpaq, kapital, əmək. Məşğulluğun təmin olunması funksiyası. Birbaşa və dolayı məşğulluq. Hamarlama funksiyası. Ödəmə balansının tarazlaşdırılması funksiyası. Gəlirlərin əldə olunması funksiyası. Turizmin çoxaldıcı funksiyası. Multiplikatorun növləri. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. |

| | | | |
|---|---|---|---|
| **11** | | Mövzu 11.<br>**Asudə vaxt və onun təşkilinin nəzəri əsasları**<br><br>**Asudə vaxtın təşkilinin texnologiyası**<br><br>Sosial-mədəni və asudə vaxt infrastrukturu və onun mahiyyəti. Asudə vaxtın təşkili pedaqoji-tərbiyəvi fəaliyyət sahəsi kimi. Asudə vaxt təşkilinin sosial funksiyaları. Asudə vaxt təşkilinin prinsipləri. Asudə vaxtın təşkilində məqsədyönlülük. Asudə vaxt fəaliyyətinə paradiqmal yanaşma. Asudə vaxt fəaliyyətində innovasiya. Asudə vaxtı təşkil edən mədəniyyət müəssisəsinin fəaliyyətinin bazar iqtisadiyyatı şəraitində qurulması. Yaşayış yerinə görə asudə vaxt fəaliyyətinin təşkili. Asudə vaxtın təşkilinin texnologiyası anlayışı. Asudə vaxtın təşkilinin texnologiyasına elmi yanaşmalar. Asudə vaxtın təşkili fəaliyyətinin iqtisadi əsasları. Asudə vaxtın təşkili fəaliyyətinin kütləvi formaları. Asudə vaxtın təşkili fəaliyyətinin qrup formaları. Asudə vaxtın təşkili fəaliyyətinin fərdi formaları. Ünsiyyət asudə vaxtın təşkilinin əsasıdır. Asudə vaxtın təşkili fəaliyyətinin polifonik strukturu. Asudə vaxtın təşkili texnologiyasında dramaturgiya komponentləri. Asudə vaxtın təşkili texnologiyasında rejissorluq. Bədii metodlar asudə vaxtın təşkili texnologiyası kimi. Auditoriyaya təsiretmədə bədii-ifadə və simvolik-alleqorik üsullar. Metodik təminat asudə vaxtın təşkili texnologiyası kimi. Asudə vaxtın təşkili fəaliyyəti texnologiyası mexanizminin sosial-psixoloji əsasları. Mədəniyyət müəssisəsinin sosial-psixoloji mühitinin tənzimlənməsi. Asudə vaxtın təşkili texnologiyasının qəbuledilmə mexanizmi. Auditoriyanın asudə vaxtın təşkili fəaliyyətinə təsiri. | Mühazirə materialları<br>İ. Hüseynov, N. Əfəndiyeva Turizmin əsaslari. Dərslik. Azərbaycan dilində. Baki 2007. |
| **12** | | Mövzu 12.<br>**Ekskursiyalar və onların təşkili**<br><br>Ekskursiya və onun asudə vaxtın keçirilməsində rolu. Ekskursiyanın mahiyyəti, məntiqi məzmunu. Ekskursiyaların vizual və şifahi məzmunu. Ekskursiyaların metodikası, hazırlanma texnologiyası. Ekskursiya marşrutlarının tərtib olunması. Ekskursiyaların həyata keçirilmə metodikası. Ekskursiyaların keçirilmə texnikası. Bələdçinin ustalığı. Ekskursiya xidmətləri və onların turizm məhsulunun tərkibində yeri. Ekskursiya | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| | | fəaliyyəti və onun əsas elementləri. Təşkilati və qeyri-təşkilati ekskursiya fəaliyyəti. Ekskursiya büroları və onların növləri. Turizm firmalarının ekskursiya bölmələri. Ekskursiya müəssisələrinin iş prinsipləri və onların xüsusiyyətləri. Ekskursiya müəssisələrinin heyəti və onların vəzifələri. Ekskursiya müəssisələrinin əsas xidmətləri və onların göstərilmə xüsusiyyətləri. Qid və turrəhbər. | |
| **13** | | Mövzu 13. **Turizmdə sığorta. Turizmin təhlükəsizliyi**<br><br>Sığortanın ümumi xarakteristikası. Turizmdə istifadə olunan sığorta növləri. Sığorta turizm fəaliyyətinin mühüm elementi kimi. Turistlərin sığortalanmasının əhəmiyyəti. Turistlərin fərdi sığortası. Turistlərin əmlak sığortası. Sığortanın maliyyə-iqtisadi aspektləri. İnternet vasitəsilə sığorta xidmətləri. Turizmdə sığortanın hüquqi zəmini. Sığorta hadisələri və onların təsnifatı. Sahələr, yarımsahələr və növlər üzrə sığorta. Turizm sığorta xidmətlərinin formaları. Səyahətçinin sığorta polisi. Sığorta polisinin kateqoriyaları. Sığorta xidmətlərinin göstərilmə texnologiyası. Sığorta tarifi və onların formalaşdırma texnologiyası. Sığorta müqaviləsi. Sığorta hadisəsi hesab edilməyən hadisələr. Vizalar və dəvətlər. Vizaların növləri. Vizaların təsnifatı. Şengen vizası. Viza anketlərinin tərtib olunması. Turist vizalarının verilməsi prosedurası. Vizaların verilməsindən imtina və onun əsas səbəbləri. Müxtəlif ölkələrdə viza rejimlərinin xüsusiyyətləri. Viza rejimlərinə görə ölkələr qrupu. | Mühazirə materialları<br><br>Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti. - Bakı: Mütərcim, 2006. - 280 səh. https://www.kitabxana.net/files/books/file/1534174395.pdf |
| **14** | | Mövzu 14. **Turizmdə informasiya texnologiyaları**<br><br>Turizm biznesinin kompüterləşdirilməsi. Turizm ofisində informasiya texnologiyaları. Beynəlxalq bronlaşdırma sistemi. Turizmdə internet-intranet texnologiyası. İnternetin turizmdə rolu. İnternetin turizm və qonaqpərvərlik sənayesindəki funksiyaları: kommunikasiya və əlaqə; turizm məhsulunun reklamı və hərəkət etdirilməsi; marketinq tədqiqatları; firmaların və onların turizm xidmətlərinin elektron təqdimatları; beynəlxalq elektron turizm sərgilərində və yarmarkalarda iştirak; | Mühazirə materialları<br>**https://codoschool.ru/az/mts-bank/vozmozhnosti-informacionnyh-uslug-i-tehnologii-v-turizme-informacionnye-tehnologii-v-turizme-spisok.html** |

| | | | |
|---|---|---|---|
| | | bronlaşdırma və rezervasiya sistemindən istifadə; turların sərbəst formalaşdırılması; ölkələr və istiqamətlər üzrə elektron kataloqların istifadə olunması; ölkəşünaslıq məlumatlarının alınması; yol, hava, nəqliyyat marşrutları, otellərin, restoranların tarifləri haqda opreativ məlumatların alınması. İnternetdən hesablaşmalar üçün istifadə olunması. | |
| **15** | | Mövzu 15. **Turizmin tənzimlənməsi**<br><br>Turizm siyasəti. Turizmin idarəetmə orqanları. Turizmdə lisenziylaşdırma. Turizmdə standartlaşdırmanın əsasları. Turizmdə sertifikatlaşdırma. Turizmdə idarəetmə sistemi. Turizmin normativ-hüquqi əsasları. Azərbaycanda turizm fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri. Regional turizmin inkişafında dövlət siyasətinin əsas istiqamətləri. Turizm sferasında münasibətlərin hüquqi tənzimlənməsi. Turizm iqtisadi fəaliyyət kimi. Turizmdə sahibkarlığın növləri. Turizm müəssisəsinin maliyyə fəaliyyətinin dövlət tənzimlənməsi. Turizm fəaliyyətinin beynəlxalq tənzimlənməsi. Turizm barəsində beynəlxalq qanunvericilik. Turizm haqqında beynəlxalq sənədlər. | Mühazirə materialları<br>Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti. - Bakı: Mütərcim, 2006. - 280 səh. https://www.kitabxana.net/files/books/file/1534174395.pdf<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

**Seminar məşğələləri.Cəmi-30 saat**

| | | | |
|---|---|---|---|
| 1 | | Turizm və ilk səyahətlər. Turizmin konseptual əsasları | 2 s. |
| 2 | | Turizmin tarixi | 2 s. |
| 2 | | Turizm ehtiyatları | 2 s. |
| 3 | | Turizm məhsulu və onun tərkibi | 2 s. |
| 3 | | Turizmin funksiyaları | 2 s. |
| 4 | | Turizm infrastrukturu | 2 s. |
| 5 | | Turizm sənayesi. Turizmin təşkili | 2 s. |
| 5 | | Turizm bazarı | 2 s. |
| 6 | | Turların formalaşdırılması, hərəkət etdirilməsi və reallaşdırılması | 2 s. |

| | | | |
|---|---|---|---|
| 7 | | Turizmin iqtisadi inkişafda rolu | 2 s. |
| 8 | | Asudə vaxt və onun təşkilinin nəzəri əsasları | 2 s. |
| 9 | | Ekskursiyalar və onların təşkili | 2 s. |
| 10 | | Turizmdə sığorta. Turizmin təhlükəsizliyi | 2 s. |
| 11 | | Turizmdə informasiya texnologiyaları | 2 s. |
| 12 | | Turizmin tənzimlənməsi | 2 s. |
| 13 | | Turizm və ilk səyahətlər. Turizmin konseptual əsasları | 2 s. |
| 14 | | Turizmin tarixi | 2 s. |
| 15 | | Turizm ehtiyatları | 2 s. |

**Fənn müəllimi:** **dos. Ə.X.Cabbarov**